**1.** Diaqonalı 6 sm olan kubun tam səthi ilə yan səthinin sahələri cəmini tapın.

*(6 aprel 2025, DİM)*

**2.** Açılışı şəkildə verilmiş düzgün piramidanın tam səthinin sahəsi 360 olarsa, apofeminin uzunluğunu tapın.




*(9 mart 2025, DİM)*

**3.** Yan səthinin sahəsi 72, hündürlüyü 6 olan düz prizmasının oturacağının perimetrini tapın.

*(2 mart 2025, DİM)*

**4.** Oturacağının diaqonalı $5\sqrt{2}$ olan kubun tam səthinin sahəsini tapın.

*(14 aprel 2024, DİM)*

**5.** Tam səthinin sahəsi 150 $sm^2$ olan kubun bir üzünün diaqonalını tapın.

A) 12 sm B) $5\sqrt{2}$ sm C) $6\sqrt{2}$ sm
D) $3\sqrt{2}$ sm E) 10 sm

*(10 mart 2024, DİM)*

**6.** $A$ və $B$ düz prizmaları oxşar olarsa, $A$ prizmasının hündürlüyünü tapın ($a$ və $b$ prizmalarin oturacaqlarının uyğun tərəfləridir).




*(3 mart 2024, DİM)*

**7.** Bütün tillərinin uzunluqları cəmi 24 sm olan tetraedrin tilini tapın.

A) 3 sm B) 8 sm C) 4 sm
D) 6 sm E) 12 sm

*(2 aprel 2023, DİM)*

**8.** Hündürlüyü 2 olan düzbucaqlı paralelepipedin həcmi $V = 2a^3 - 54$ çoxhədlisi ilə ifadə olunub. Bu paralelepipedin oturacağının eni $A = a - 3$ olarsa, onun tam səthinin sahəsini tapın ($a > 3$).

*(2 aprel 2023, DİM)*

**9.** Üzlərinin diaqonalları 6, $\sqrt{13}$ və 7 olan paralelepipedin diaqonalını tapın.

*(12 mart 2023, DİM)*

**10.** Diaqonalı $4\sqrt{3}$ olan kubun həcmini tapın.
A) 16 B) 64 C) 32 D) 48 E) 18

*(5 mart 2023, DİM)*

**11.** Tam səthinin sahəsi 30 olan kubun tilini tapın.
A) 5 B) 3 C) $\sqrt{5}$
D) $\sqrt{3}$ E) $\sqrt{6}$

*(3 aprel 2022, DİM)*

**12.** Tetraedrin bir tili 7 olarsa, bütün tillərinin cəmini tapın.
A) 21 B) 28 C) 35 D) 42 E) 63

*(13 mart 2022, DİM)*

**13.** Tam səthinin sahəsi $96 \text{ dm}^2$ olan kubun oturacağının diaqonalını tapın.
A) $4\sqrt{2}$ dm B) 16 dm C) 8 dm
D) $2\sqrt{2}$ dm E) 4 dm

*(12 mart 2022, DİM)*

**14.** Paralelepipedin həcminin 125 dəfə azalması üçün onun xətti ölçülərini neçə dəfə azaltmaq lazımdır ?
A) 25 B) 625 C) 3 D) 9 E) 5

*(6 mart 2022, DİM)*

**15.** Düzbucaqlı paralelepipedin xətti ölçüləri 5 sm, 7 sm və 11 sm olarsa, onu tam səthinin sahəsini tapın.
A) 200 sm$^2$ B) 452 sm$^2$ C) 125 sm$^2$
D) 334 sm$^2$ E) 245 sm$^2$

*(5 mart 2022, DİM)*

Düzgün cavablar

1 (120)  2 (13)  3 (12)  4 (150)  5B  6 (5)

7C  8 $(2x^3+4x^2+16x-30)$  9 (7)  10B

11C  12D  13A  14E  15D